UNEC Regional İqtisadiyyat Tədqiqat Mərkəzinin məqsədi ölkə regionlarının səmərəli və balanslı inkişafını təmin edən iqtisadi siyasətin formalaşdırılmasına elmi-analitik dəstək verməkdir.

Əsas məqsədlər:

- Azərbaycan regionlarının iqtisadi potensialını öyrənmək və inkişaf istiqamətlərini müəyyənləşdirmək.
- Regional inkişaf və iqtisadi siyasət üzrə elmi tədqiqatlar aparmaq.
- Regionlararası iqtisadi fərqləri və balanssızlıqları təhlil edərək tövsiyələr hazırlamaq.
- Yerli və regional biznes mühitini, sənaye, kənd təsərrüfatı və xidmət sahələrinin inkişaf imkanlarını araşdırmaq.
- Dövlət və özəl sektor üçün regional iqtisadiyyat üzrə analitik hesabatlar və proqnozlar hazırlamaq.
- Regional inkişaf sahəsində beynəlxalq təcrübəni öyrənmək və tətbiq imkanlarını araşdırmaq.
- Regionlarda dayanıqlı inkişaf, məşğulluq və sosial rifahın yüksəldilməsi üçün elmi əsaslı yanaşmalar işləyib hazırlamaq.